*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   18 aprel 2015-ci il   № 29 (1945)   Qiymәti 25 qәpik

## Rəsmi xronika

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Serbiya Respublikasının Baş naziri Aleksandr Vuçiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Söhbət zamanı əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən enerji, infrastruktur, sərmayə qoyuluşu, yükdaşımaları, mədəni, humanitar və digər sahələrdə perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Görüşdə, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə toxunularaq münaqişələrin beynəlxalq hüquq normalarına uyğun şəkildə və ərazi bütövlüyü çərçivəsində həll olunmasında ölkələrimizin mövqeyinin üst-üstə düşdüyü vurğulandı.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Dövlətimizin başçısı Tatarıstana səfərini və Kazan şəhərinin onda böyük təəssürat yaratdığını məmnunluqla xatırladığını dedi. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası və onun subyektləri arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan Prezident İlham Əliyev Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovun böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin bu münasibətlərin daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi. Dövlətimizin başçısı əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən ticarət, sərmayə qoyuluşu, birgə layihələrin icrası və digər sahələrdə genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi.*

*Görüşdə maşınqayırma, neft maşınqayırması, Gəncədə avtomobilyığma, neft-kimya, informasiya texnologiyaları, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də İtaliya Respublikasının iqtisadi inkişaf naziri Federika Quidinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Prezident İlham Əliyev İtaliyanın iqtisadi inkişaf naziri Federika Quidinin Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Görüşdə Azərbaycan ilə İtaliya arasında kənd təsərrüfatı, yüksək texnologiyalar, sənayenin inkişafı və digər sahələrdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

**AzərTAc-ın materialları əsasında**

*Ön xətdən reportaj*

# Birliyimiz səngərdə möhkəmlənir

General-polkovnik Zakir HƏSƏNOV:

*"Düşmənin mövqelərimiz istiqamətində dəfələrlə təxribat xarakterli əməliyyatlar keçirmək cəhdi ayıq-sayıq əsgərlərimiz tərəfindən elə ilk anda alınıb. Bu həmişə belə olub və gələcəkdə də bu cür olacaqdır".*



***Yazın gəlişi ilə təbiət oyanır, ağaclar tumurcuqlayır, güllər çiçək açmağa başlayır. Baharın gəlişindən bir qədər ötməsinə baxmayaraq şimaldan soyuq küləklər hələ də əsməkdədi. Amma elə bölgələrimiz də var ki, o yerlərdə qışın şaxtası hələ çəkilməyib. Havanın necə olmasına rəğmən Murovun zirvəsində də, Haramıda da döyüşçülərimiz ayıq-sayıqdırlar.***

Zabit Azər Əhmədov hələ qərargahda olarkən bildirmişdi ki, yüksəkliklərdə qar var. Postlara gediş-gəliş məhduddur. Şəxsi heyətin təhlükəsizliyi baxımından qarlı havada onların hərəkəti məhdudlaşdırılır.

Təcrübəli zabit bir neçə ildir ki, burada xidmət edir. Əraziyə yaxından bələd olduğundan dağlarda mövqe tutan döyüşçülərin sosial şəraitindən söz açır və əlavə edir ki, hər bir əsgərin sağlamlığı onlar üçün önəmlidir. Postlarda hər cür təminat vardır.

Şəxsi heyətin mənəvi-psixoloji durumuna gəlincə zabit bildirir ki, mükəmməl təlim görmüş hər bir əsgər istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Döyüş atışlı təlimlərdə əldə edilən nəticələr bir daha onu göstərir ki, əsgərlər öz ixtisaslarına mükəmməl yiyələniblər. Hər bir atıcı ona verilən hədəfi təyin edilmiş məsafədən asanlıqla məhv edə bilir. Əldə etdikləri bilik və bacarıqlara güvənən döyüşçülər istənilən an düşmən üzərinə getməyə hazırdırlar.

Ermənilərlə təmas xəttində olan bölməyə çatanda bizi mayor Anar Həsənov qarşılayır. Ön xətdə nisbi sakitliyin hökm sürdüyünü bildirir. Müşahidə postlarıyla daim əlaqə saxlandığını deyən zabitə görə, düşmən tərəfdə baş verən hər bir dəyişikliklə bağlı dolğun məlumata malikdirlər. Yüksək dağlıq və sərt iqlim şəraitində xidmət etmələrinə baxmayaraq, əsgərlərimiz sayıqlığı bir an belə əldən vermirlər. Zabit bildirir ki, günün istənilən çağı düşmən hücuma cəhd edərsə, biz təxribatın qarşısını qətiyyətlə ala biləcəyik və bunun üçün yetərincə gücümüz və imkanımız var.

**(Ardı 2-ci səhifədə)**

## Fransalı professor: Yeni nəsil bilməlidir ki, soyqırımı haqqında həqiqətlər yalnız statistikadan ibarət deyil

"İkinci dəfə keçirilən beynəlxalq konfransa mən ilk dəfədir dəvət almışam. Konfrans Azərbaycanda minlərlə yerli sakinin qətlə yetirilməsi ilə nəticələnən soyqırımına həsr olunub. Həmin vaxt öldürülən insanlar hərbçilər, silahlı şəxslər olmayıblar. Onlar hətta niyə öldürüldüklərini belə bilməyən yerli dinc sakinlər idi. Biz tarixçilər konfransda 1918-ci ildə baş verənlərin niyə, hansı şəraitdə və kimlər tərəfindən törədildiyini dəqiqliyi ilə araşdırır, eyni zamanda, bu hadisələrə hüquqi qiymət verilməsi yollarını müzakirə edirik".

Bu fikirləri AzərTAc-a müsahibəsində Quba şəhərində keçirilən "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" adlı II Beynəlxalq elmi konfransa Fransadan qatılan professor Mayrbek Vaçaqayev bildirib. Fransada fəaliyyət göstərən Qafqaz Araşdırmalar Mərkəzinin rəhbəri olan tarixçi Quba soyqırımı məzarlığını ziyarət etdikdən sonra onda bu qanlı hadisələrin miqyası barədə daha geniş təəssürat yarandığını qeyd edib. "Bu barədə dünya ictimaiyyətinin məlumatlandırılması olduqca vacibdir. Məsələn, Fransada Holokost qurbanları haqqında məlumatlandırma yüksək səviyyədə təşkil olunub. Bu ölkədə hər bir şagird oxuduğu məktəbə daxil olanda qarşısına çıxan lövhədə həmin təhsil ocağının neçə şagirdinin soyqırıma məruz qalması haqqında qeydi oxuya bilər. Azərbaycanda, Qubada da bunu tətbiq etmək lazımdır. Yeni nəsil bilməlidir ki, soyqırımı haqqında həqiqətlər yalnız tarixçilərin söylədiyi statistik rəqəmlərdən ibarət deyil. Qoy onlar bu faciəvi hadisələrin qurbanları haqqında ətraflı məlumatlandırılsınlar. Bu o demək deyil ki, biz daim ağlamalı və kədərlənməliyik. Yox, əsas məsələ budur ki, soyqırımı qurbanları heç vaxt unudulmasın", - deyə tarixçi sözlərinə davam edib.

Professor Mayrbek Vaçaqayev müsahibəsində qeyd edib ki, son zamanlar siyasətçilər yeri gəldi-gəlmədi soyqırımlar haqqında danışırlar. Beləliklə, bu termin adiləşir, əsl mahiyyətini itirir. "Buna görə də hesab edirəm soyqırımları araşdıran tarixçilər, elm adamları siyasətlə məşğul olmamalıdırlar. Onlar ancaq faktların əks olunduğu sənədləri yaymalı və heç bir şərh verməməlidirlər. Yüz yozum, şərh əvəzinə, bir sənəd təqdim olunsa, bu, tarixi hadisələr haqqında həqiqətin ortaya çıxmasında daha böyük rol oynaya bilər. Fikrimcə, Azərbaycan Milli Elmlər Akademiyasının bu istiqamətdə atdığı addımlar təqdirəlayiqdir və olduqca əhəmiyyətlidir", - deyə professor M.Vaçaqayev vurğulayıb.

## Dağlıq Qarabağ münaqişəsi həll edilmədikcə Cənubi Qafqazda sülh bərqərar olmayacaq

Rusiyada səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Cəmil Çiçək TASS agentliyində keçirdiyi mətbuat konfransında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsindən də danışıb. O, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar Türkiyənin mövqeyinin bəlli olduğunu bildirərək deyib: "Biz imkan olduqca bu haqsızlığın bütün səviyyələrdə keçirilən görüşlərdə müzakirə edilməsinə çalışırıq. Türkiyə ATƏT-in Minsk Qrupunun fəaliyyətindən narazıdır. Münaqişə başlayan vaxtlarda dünyaya gəlmiş uşaqlar bu gün artıq 22-23 yaşlarındadır, bir milyondan artıq insan yerindən-yurdundan didərgin düşüb. Lakin təəssüf ki, beynəlxalq aləmdə bu məsələyə münasibətdə ikili standartlar nümayiş olunur".

Türkiyə parlamentinin sədri vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsi həll edilmədikcə, Cənubi Qafqazda sülh bərqərar olmayacaq. Bölgədə sülhün bərqərar olması üçün bu münaqişənin həll edilməsi vacibdir. Təəssüf ki, Minsk qrupunun problemin həlli istiqamətində vasitəçilik səyləri heç bir nəticə vermir və bu haqsızlıq hələ də davam edir.

**AzərTAc**

# Birliyimiz səngərdə möhkəmlənir

(Əvvəli 1-ci səhifədə)



Hərbi xidmətinin çox hissəsini ön xətdə keçirən Anar Həsənov deyir ki, əvvəlki illərdə düşmən yaz aylarında daha fəal olardı. Hər dəfə onların təxribatının qarşısını qətiyyətlə almışıq. Döyüşçülərimizin sayıqlığı sayəsində indi də mövqelərimizi qətiyyətlə qoruyuruq.

Zabitə görə, erməni postları ilə yaxın ərazidə daim sayıqlıq hökm sürməlidir. Burada fasiləsiz müşahidə tələb olunur. Bu da əsgərlərin təhlükəsizliyi baxımından vacibdir.

- Düzdür, qar da əriməyib, nə qədər ki, soyuq hava şəraiti davam edəcək, qarın əriməsini gözləmək sadəlövhlükdür, - zabit deyir. - Tez-tez başımızın üstünü topa qara buludlar alır. Hər topa bulud gah qar gətirir, gah yağış, gah da qatı duman. Müşahidə aparan əsgərlər isə hər bir hava şəraitində sayıqdırlar.

Postlarda əsgərlərlə görüşürəm. Kiçik çavuş Əlövsət Yolçuyev bir ildən artıqdır ki, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi ordu sıralarındadır. Zabit A.Həsənov manqa komandirinin xidmətindən razı qaldığını bildirərək verilən tapşırığın öhdəsindən qətiyyətlə gəldiyini deyir. Qədim Göyçə mahalının Zod kəndindən olan Əlövsətgilin ailəsi də ermənilərin siyasətinin qurbanı olub. 1988-ci ildə doğma eşiklərini tərk edərək Göygöl rayonuna pənah gətiriblər. Həmin vaxtdan Zurnabad kəndində yaşayırlar. Uşaqlıq illərini Göyçədə keçirdiyi üçün doğma el-obasının həsrətindədir. Əlövsət istehkamçı kimi minaları döyüş vəziyyətinə gətirməyi bacardığını və onları zərərsizləşdirməyin sirlərini mükəmməl öyrəndiyini söyləyir. Söhbətimizdən məlum olur ki, Əlövsətin bir qardaşı da hərbçidir, cəbhə bölgəsində xidmət edir.

Əlövsətlə xidmət edən əsgərlərlə tanış oluram. Məlum olur ki, onlar ölkəmizin ayrı-ayrı bölgəsindəndirlər. Məqsədləri, amalları Vətənimizi yağılardan qorumaq, ermənilərin işğal etdikləri ərazilərimizi azad etməkdir.

Yardımlı rayonundan olan Elgün Şahbazlı Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. Cəbhə bölgəsində hərbi xidmət keçməkdən qürur duyduğunu deyir. Bir neçə aydan sonra ordu sıralarından tərxis olunacaq. Bir illik hərbi xidmət onun üçün əsl həyat məktəbi olub.



Beyləqanlı Niyaməddin Əliyev və lerikli Fuad Babayev bir ilə yaxındır xidmət edirlər. Onlar təlim dövrünü başqa hərbi hissədə keçsələr də, xidmətlərini cəbhə bölgəsində davam etdirirlər.

Söhbətlərindən hiss edirəm ki, sərt iqlim şəraitində xidmət etməkdən qətiyyən narahat deyillər, əksinə, deyirlər ki, burada bizdən də əvvəl nə qədər gənc qürurla xidmət edib. Onların yolunu davam etdirmək, Vətənə can-başla xidmət etmək bizim borcumuzdur.

Qarlı dağlar qoynunda xidmət edən hər kəsin üzündən igidlik, məğrurluq yağır. Onların bir hədəfi var. O hədəf də torpaqlarımıza qənim kəsilmiş ermənilərdir. Ümid edirik ki, düşməni məhv etmək üçün yüksək hazırlıqlı döyüşçülərimizə bircə "İrəli" komandası gərəkdir...

Qar yağsa, sazaq da olsa, əsgərlərimiz döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirəcəklər...

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hərbi qulluqçumuz şəhid olub

***16 aprel 2015-ci il.***

Erməni silahlı bölmələrinin atəşkəs rejimini pozması nəticəsində xidməti vəzifələrini yerinə yetirən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu gizir Şahmurad Hilal oğlu Əlizadə şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***17 aprel 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 33 dəfə pozub.

Silahlı Qüvvələrimizin mövqeləri Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Yusifcanlı, Cəvahirli, Sarıcalı, Şirvanlı, Şıxlar, Mərzili, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

*Döyüş hazırlığı*

# Topçuların ovqatı

***Əbədiyaşar komandan Heydər Əliyev Silahlı Qüvvələrdə vətənpərvərlik tərbiyəsinə həmişə diqqət yetirirdi. Bildirirdi ki, Vətənə ləyaqətli xidmət hər bir ölkə vətəndaşının şərəf işidir. Bu şərəfə nail olmaq üçün Vətəninə, xalqına qırılmaz tellərlə bağlı olmalısan, öz işinlə, əməlinlə bunu sübut etməlisən. Ulu öndərin tövsiyə və kəlamlarını heç vaxt unutmayan əsgər və zabitlərimiz Vətənə xidmətdən qürur hissi keçirdiklərini daim bildirirlər. Həyatlarını orduya, Vətənin müdafiəsinə həsr edən oğullar bugünkü cəmiyyətimizdə də yüksək hörmətə layiqdirlər.***

Zabit Elşən Vəliyev ötən illərlə müqayisədə hazırkı dövrdə həyata keçirilən islahatların ordunun müasir tələblər səviyyəsində qurulmasında xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdıraraq şəxsi heyətin döyüş ruhunun artırılmasında bu islahatların mühüm rola malik olduğunu bildirir.

Artilleriya qüvvələri sırasında önəmli yer tutan "N" hərbi hissəsində də şəxsi heyətin döyüş hazırlığının gündən-günə artırılmasına ciddi fikir verilir. Müdafiə Nazirliyinin təsdiq etdiyi plana əsasən, döyüş və ictimai-siyasi hazırlıq məşğələləri hərbi biliklərin əsgərlərə aşılanmasında xüsusi əhəmiyyət daşıyır. Ordu gəncləri məşğələlər zamanı öyrəndiklərini təlimlər zamanı əyani surətdə tətbiq etməklə, döyüş təcrübələrini artırmağa çalışırlar.

Özüyeriyən artilleriya diviziyonunun şəxsi heyəti döyüş hazırlığında həmişə fərqlənir. Onlar qarşıya qoyulan döyüş tapşırıqlarını müntəzəm yerinə yetirirlər.



Budur, növbəti ixtisas məşğələsidir, şəxsi heyətə "Atəş mövqeyinin tutulması qaydası və görülən işlər barədə" hərtərəfli məlumat verilir. Əsgərlər hazırlanmış atəş mövqeyinin tutulması qaydasını həyata keçirirlər.

Baş leytenant Tural Abbasov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin yetirməsidir. Onun komandiri olduğu batareya öncüllər sırasındadır, keçirilən təlim və məşqlərdə həmişə fərqlənir. Vətənpərvər zabit deyir:

- Nə qədər müasir silah, texnika olsa da, əsas şərt ondan istifadə etməyi bacaran, vətənpərvər, fədakar əsgərlərin olmasıdır. Vətənə bağlılıq, Vətən sevgisi olmasa, uğur qazana bilməzsən. Qürurla deyə bilərik ki, əsgərlərimiz yüksək mənəvi dəyərlərə malikdirlər. Döyüş hazırlığı məşğələləri göstərir ki, topçularımız qarşıda duran vəzifələri yerinə yetirmək üçün real imkanlara malikdirlər.

Top heyətinin komandiri Rüfət Əlihüseynlini fədakar gizir kimi təqdim etdilər. Onun tabeliyindəki heyət döyüş tapşırıqlarını müntəzəm yerinə yetirir. Gizir Əlihüseynli bir neçə ildir ki, ordu sıralarındadır. Vətənə xidməti hər şeydən uca tutan gizir hərbçi olmağı ömrünün mənası sayır. Onun ən böyük arzusu işğal altında olan torpaqlarımızın düşməndən azad olunmasıdır.

Növbəti həmsöhbətim əsgər Şamil Həmidov da şəxsi heyət arasında vətənpərvərliyi ilə seçilənlərdəndir. Xidmət etdiyi müddətdə vəzifəsinin öhdəsindən bacarıqla gələn Şamil Həmidov deyir:

- Bizi bir məqsəd birləşdirir: torpaqlarımızın azadlığı uğrunda döyüşlərə hazır olmaq. Buna görə də hər birimiz müsəlləh əsgər kimi Vətən qarşısında müqəddəs borcumuzu yerinə yetirməyə səy göstəririk.

Əsgərlərdən Şahin Babazadə, Cavid Alışov, Şamo Əliyev də silahdaşları kimi istənilən vaxt düşmənə qarşı döyüşlərə hazır olduqlarını bildirdilər.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Məsuliyyət və çalışqanlıq uğurlara yol açır

Kapitan Anar Abbasovla birlikdə bir az kənarda dayanıb heyət nəfərlərinin məşğələsini izlədik. Onların cəld hərəkətlərindən səriştəli olduqları hiss olunurdu. Şəxsi heyət verilən tapşırıqları bacarıqla yerinə yetirərək, artilleriya qurğusunu təyin olunan vaxtda "döyüş" və "səfər" vəziyyətinə gətirirdi. Hər bir tapşırıq topçular tərəfindən qüsursuz yerinə yetirilirdi. Bu isə heyət nəfərlərinin kifayət qədər hazırlıqlı olmasının göstəricisi idi.

Top komandiri kiçik çavuş Xəqani Qurbanov tabeliyindəki heyət nəfərlərinin hazırlığından qürur hissi keçirirdi. Üzündəki təbəssümdən hiss olunurdu ki, o, əsgərlərindən razıdır.

- Heyət nəfərlərinin belə hazırlıqlı olması başucalığımızdır, - deyir top komandiri. - Əsgərlərimiz əldə olunan uğurlarla kifayətlənmir. Heyət nəfərləri daim uğurlara can atır. Xidmətimizə məsuliyyətlə yanaşdığımızdan həmişə məqsədimizə nail oluruq. Biz hərbi bilikləri mərhələ-mərhələ öyrənirik. Bir qayda olaraq, əvvəlcə nəzəri dərs və məşğələlər keçirik. Sonra isə əməli məşğələlər başlanır. İndiki mərhələdə əsgərlər nəzəri cəhətdən öyrəndiklərini əməli surətdə həyata keçirirlər. Kifayət qədər təcrübə toplamış əsgərlər artilleriya qurğusunu həm təyin olunmuş vaxtda, həm də yüksək bacarıqla "döyüş" və "səfər" vəziyyətinə gətirirlər. Məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışırıq. Belə çalışqanlıq və məsuliyyət uğurlara, müsbət nəticələrə yol açır.

Top komandirinə görə, heyət nəfərlərinin bəziləri ordu sıralarında ilk addımlarını atmalarına baxmayaraq, onlar döyüş vərdişlərini tez bir zamanda mənimsəyiblər. "Bir müddət əvvəl təlimdən qayıtmışıq. Qarşımıza qoyulmuş tapşırıqları peşəkarlıqla yerinə yetirərək uğur qazandıq. Buna hamımız sevinirik".



Kapitan Anar Abbasov keçirilən məşğələnin mövzusundan ətraflı söz açdı. Bildirdi ki, dərsin mövzusu topun tuşlanması, topun yanında heyətin işinə həsr olunub. Məşğələ başlanan kimi top komandiri mövzunu şəxsi heyətə ətraflı izah edir. Onlara lazımi vərdişlər aşılayır. Sonra məşğələlər zamanı əsgərlər özləri bu hərəkətləri təkrar edib vərdişlərə daha mükəmməl yiyələnirlər. Müşahidələrimə əsaslanıb deyə bilərəm ki, heyət nəfərləri hərbi bilikləri hərtərəfli öyrəniblər.

Top komandiri ilə söhbət zamanı onu da öyrəndim ki, heyət nəfərlərindən Sənan Mamayev, Elxan Həsənov, Xəzər Bəhramzadə, Orxan Bəşirov, Azər Əliyev və başqaları vəzifə borclarının öhdəsindən bacarıqla gəlirlər. Onlar həm təlimlərdə, həm də dərs və məşğələlərdə tapşırıqları peşəkarlıqla yerinə yetirməyə can atırlar.

Artilleriyaçıların məşğələsi öz axarı ilə davam edir. Böyük uğurlar qazandıqlarına görə heyət nəfərləri sevinc içindədir. İnanıram ki, belə bacarıqlı əsgərləri qarşıda hələ böyük uğurlar gözləyir.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Təlim*

# Hər birimiz öyrənməyə həvəsliyik



Məşğələdə iştirak edən əsgərlər qumbaraatan silahının sirlərinə dərindən yiyələnmək üçün komandirlərin verdiyi əmr və tapşırıqları çevikliklə yerinə yetirirdilər. Şəxsi heyətin keçdiyi məşğələni diqqətlə izləyən kapitan Rəşad İmamquluyev öz fikirlərini bizimlə bölüşdü. Bildirdi ki, əsgərlərimizin döyüş hazırlığının yüksək səviyyədə olması üçün məşğələlərin səmərəli keçirilməsini təmin edirik. Hərbi hissəmizdə dərs və məşğələ keçmək üçün komandanlıq hərtərəfli şərait yaradıb. Zabitlərimiz isə yaradılmış bu şəraitdən yetərincə bəhrələnməyə çalışırlar. Bu gün sırada təlim keçən əsgərlərin xidmətə başladıqları elə də çox vaxt deyil. Amma ötən müddət ərzində onlar lazımi hərbi bilik və vərdişlərə dərindən yiyələniblər.

Məşğələdə iştirak edən əsgərlər çalışırlar ki, komandirin verdiyi tapşırıqları qüsursuz yerinə yetirsinlər. Buna görə də silahla düzgün davranır, yaxşı mövqe seçir və hədəfə sərrast atəş açırlar.

- Əsgərlərimizin döyüş hazırlığı nə qədər yüksək olarsa, daha çox uğur qazanacaqlar, - deyə taqım komandiri leytenant Əfşan Abbasov bildirdi. - Onların dərs və məşğələlərdə fəallıq göstərməsi, mövzuları həvəslə öyrənməsi bizi də ruhlandırır. Şəxsi heyət, bir qayda olaraq, keçirilən mövzuları konspektləşdirir, hər bir mövzunu əhatəli öyrənməyə çalışır. Biz zabitlər də məşğələnin hər dəqiqəsindən səmərəli istifadə edirik. Dərs prosesində bütün əyani vəsaitlərdən də istifadə olunur. Başlıca məqsədimiz əsgərlərə hərbi bilikləri yetərincə aşılamaqdır.

Taqım komandiri söhbət zamanı xidmətdə fərqlənən əsgərlərdən Rəşad Əhmədovun, Hüseyn Salehovun, Azər Fərəcovun, Məzahir Mahmudovun və başqalarının adlarını qeyd etdi.

Qumbaraatanların məşğələsi öz axarı ilə davam edir. Əsgərlər hərbi biliklərə dərindən yiyələnmək üçün dərsin gedişinə diqqətlə fikir verir, taqım komandirinin tövsiyələrindən nəticə çıxarmağa çalışırlar.

**V.MƏMMƏDQULUOĞLU,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

*Əsgərin tribunası*

# Hazırlıqlı olmaq əsas şərtdir



***Xidmətə çağırılmazdan əvvəl hərbi verilişlərə, filmlərə maraqla baxırdım. Əsgərlərin silahlarla davranışı, təlimlərdə cəld və çevik hərəkətləri məni heyran edirdi. Bütün bunları seyr etdikcə Vətənə əsgər olacağım günü maraqla gözləyirdim. Nəhayət, həmin gün gəlib çatdı və hərbi xidmətə çağırıldım. Artıq neçə aydır, Vətən qarşısında övladlıq borcumu yerinə yetirirəm.***

Ordu həyatına qədəm qoyduğum ilk günü yaxşı xatırlayıram. Hərbi hissəyə günortadan sonra çatdıq. Elə həmin gün bizə hərbi geyim verdilər. Həmin anı həmişə xoş təəssüratlarla xatırlayacağam. Elə növbəti gün ilk məşğələlər başlandı. Zabitlər bizə sıra hazırlığı məşğələsi keçdilər.

Günlər ötüb arxada qaldıqca təcrübəm və səriştəm artırdı. Sıra vərdişlərini mənimsədikcə daha inamla addımlayırdım. Hərbi andı qəbul etməyə hazırlaşırdıq. İlıq payız günlərinin birində hərbi hissədə mərasim keçirildi. Biz gənc əsgərlər əllərimizi silahların üstünə qoyub təntənəli surətdə hərbi andı qəbul etdik. Həmin gün əsl sevinc anları yaşadım.

Dərslərdə fəal iştirak edərək tez bir vaxtda hərbi bilikləri öyrəndim, döyüş vərdişlərini mənimsədim. Gərgin məşğələlər başa çatdıqdan sonra atış çalışmasını yerinə yetirmək üçün təlim mərkəzinə yollandıq. Döyüş vərdişlərini mənimsədiyimə görə elə də həyəcanlı deyildim. Uğur qazanacağıma əmin idim. İlk tapşırığı da əminlik hissi ilə yerinə yetirdim. Atdığım güllələr hədəfdən yayınmadı.

Əsgər yoldaşlarım da, hədəfləri dəqiq vurdular. İlk atış çalışmasının uğurla başa çatması bir daha göstərdi ki, indiyə qədər keçirilən dərs və məşğələlər səmərəli olub. Zabitlərin çəkdiyi zəhmət hədər getməyib. İlk qazandığımız uğur bizi daha da həvəsləndirdi. İndi məşğələ və dərslərdə daha da həvəslə iştirak edirik. Bilirik ki, nə qədər çox təcrübə toplasaq, təlim və döyüşlər bizim üçün o qədər asan olar.

Xidmətimin bir xeyli hissəsi hələ qarşıdadır. Bundan sonra da hərbi biliklərimi, döyüş vərdişlərimi artırmağa səy göstərəcəyəm. Çünki döyüş hazırlığının yüksək olması həmişə əsgərə uğur gətirir, qələbə sevincinin xoş anlarını yaşadır.

**Əsgər**
**Allahverdi HƏMZƏYEV,**
**"N" hərbi hissəsi**

# Daim inkişafda olan 23 yaşlı hospital

***Silahlı Qüvvələrin Baş Klinik Hospitalının yarandığı gündən 23 il keçir. Daim hərbçilərin sağlamlığı keşiyində dayanan bu səhiyyə ocağı keşməkeşli, ağır bir dövrdə - 1992-ci ildə yaradılıb.***





Aprelin 14-də əlamətdar gün münasibəti ilə Baş Klinik Hospitalda tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə hospitalın həyətində ucaldılmış ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Silahlı Qüvvələrin Baş Klinik Hospitalının 23-cü ildönümü münasibəti ilə keçirilən tədbirdə öncə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Torpaqlarımızın azadlığı uğrunda şəhid olan oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra çıxış etmək üçün söz Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyevə verilib. General hospitalın keçdiyi şərəfli döyüş yolundan, formalaşmasından və müasir inkişaf uğurlarından ətraflı danışaraq qeyd edib ki, ölkəmizin ilk hərbi səhiyyə ocağının inkişaf etdirilməsində ümummilli liderimiz Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin misilsiz xidmətləri olub. "1994-cü və 1995-ci illərdə ulu öndərin hospitala gəlişi hərbi təbabətimizin tarixində unudulmaz hadisəyə çevrildi. Həmin illərdə hospital üçün yeni müalicə korpuslarının inşası, müasir tibbi avadanlıqların alınması, tibbi kadrların Türkiyə Respublikasının Gülhanə Hərbi Tibb Akademiyasında hazırlanması kimi perspektiv lahiyələr işlənib hazırlandı. Bütün bu lahiyələrin bir hissəsi ulu öndərin sağlığı dövründə, əksər hissəsi isə dövlət başçımız İlham Əliyev tərəfindən reallaşdı", - deyə idarə rəisi bildirib.

- Bu gün fəxrlə demək lazımdır ki, ümummilli liderimiz Heydər Əliyevin vaxtı ilə Gülhanə Hərbi Tibb Akademiyasında olarkən dediyi "Bizim orduda da, bizim ölkədə də bu cür əzəmətli hərbi tibb müəssisəsi olacaqdır", sözləri artıq reallığa çevrilib, - deyə general-mayor çıxışına davam edib. - 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev altımərtəbəli, 26 müalicə-diaqnostika bölməsi, çoxsaylı köməkçi otaqları olan 300 çarpayılıq müasir cərrahiyyə korpusunun rəmzi lentini kəsərək hərbi qulluqçuların istifadəsinə verdi. O dövr üçün bu, postsovet məkanında analoqu olmayan hərbi tibb müəssisəsi idi. Ümumi sahəsi 30 min kvadrat metr olan 560 çarpayılıq, beynəlxalq standartlara cavab verən avadanlıq və cihazlarla təchiz olunmuş 27 müalicə-diaqnostika bölməsi olan ikinci müalicə korpusu 2013-cü il iyunun 25-də yenə də Ali Baş Komandan cənab İlham Əliyevin xeyir-duası ilə hərbi qulluqçuların istifadəsinə verildi.



Hazırda ordu rəhbərliyi, şəxsən Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən Silahlı Qüvvələrin Baş Klinik Hospitalının inkişafına qayğı göstərilir.

Daha sonra hospitalın ilk rəisi olmuş təcrübəli tibb zabitləri Vaqif İbrahimov, Eldar Əliyev, Asif Qurbanov, Firudin Qarabəyov və başqaları çıxış edərək təəssüratlarını bölüşüblər və hospitalın şəxsi heyətini təbrik ediblər.

Həm Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin, həm də Baş Klinik Hospitalın rəislərinin əmrləri ilə hərbi tibb işçilərinin bir qrupu mükafatlandırılıb. Mükafatları general-mayor Natiq Əliyev və Baş Klinik Hospitalın rəisi polkovnik-leytenant Tofiq Tağıyev təqdim ediblər.

Sonda Silahlı Qüvvələrin Baş Klinik Hospitalının yaranmasından və formalaşmasından bəhs edən qısametrajlı film nümayiş etdirilib.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Məşğələlərə ciddi fikir verilir

Bu günlərdə "N" hərbi hissəsində ezamiyyətdə olarkən əsgərlərin həm sıra, həm fiziki, həm döyüş, həm də ictimai-siyasi hazırlıq sistemində keçirilən məşğələlərini yaxından izlədik. Hər addımda şəxsi heyətin hazırlığının şahidi olduq. Açıq-aydın görünürdü ki, əsgərlər müxtəlif təyinatlı silahların taktiki-texniki xüsusiyyətlərini yaxşı bilir, hədəfləri dəqiq vururlar. Təbiidir ki, hazırlığı yüksək olan şəxsi heyəti xidmətin hər addımında uğur gözləyir.



İctimai-siyasi hazırlıq məşğələsində iştirak etmək üçün kapitan Rəşad İmamquliyevlə tədris otaqlarına üz tutduq. Hər tərəfdə səliqə-sahman hökm sürürdü. Fasilə başa çatdığına görə tədris otaqlarına sakitlik çökmüşdü. Bütün qruplarda dərslər, məşğələlər keçirilirdi.

Əsgərlər keçirilən dərsə qulaq asırdılar. Leytenant Əfşan Abbasov məşğələnin mövzusunu şəxsi heyətə izah edirdi. Əsgərlər zabitin dediklərinə diqqət kəsilir, qarşılarındakı dəftərdə müvafiq qeydlər aparırdılar.

- Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına böyük önəm veririk, - leytenant Ə.Abbasov dedi. - Çalışırıq ki, əsgərlərimizin həm döyüş hazırlığı, həm də mənəvi-psixoloji hazırlığı yüksək olsun. Hazırlıqlı əsgər döyüşdə hər şeyə qadirdir. Əsgərlər bu dərslərdə fəal iştirak edərək nəzəri biliklərini daha da zənginləşdirirlər.

Zabit Ə.Abbasov ictimai-siyasi hazırlıq məşğələlərində fərqlənən əsgərlərdən Hüseyn Salehov, Ramil Fətullayev, Mütabil Şıxkərimov, Rəşad Əhmədov, Ayxan İbrahimli, Qismət Muğayev və Amid Qurbanovun adlarını çəkdi.

**V.MƏMMƏDQULUOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanın zəbt olunmuş ərazilərində ermənilərin növbəti hərbi təlimləri regionda gərginliyi artırmağa xidmət edir

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın zəbt olunmuş ərazilərində növbəti təxribatçı hərbi təlimlərin keçirilməsi işğal və təcavüzə əsaslanan mövcud status-kvonu saxlamağa və məqsədyönlü şəkildə regionda gərginliyi artırmağa xidmət edir.

AzərTAc xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan silahlı qüvvələri tərəfindən keçirilən hərbi təlimlərlə bağlı açıqlamasında bildirib.

H.Hacıyev qeyd edib ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində həyata keçirilən bu təlim güc tətbiq etmək və güc tətbiq edərək hədələməyin daha bir ifadəsidir.

Azərbaycanın zəbt edilmiş ərazilərində Ermənistanın yaratdığı qondarma rejimə may ayında keçirilməsi nəzərdə tutulan qanunsuz "parlament seçkiləri" də rəsmi Yerevanın siyasi-hərbi təxribat əməllərinin növbəti tərkib hissəsidir.

ATƏT-in Minsk Qrupu tərəfindən dəstəklənən Böyük sülh sazişi üzərində işə başlamaq əvəzinə, Ermənistan tərəfindən siyasi və hərbi təxribatçı əməllər vasitəsilə danışıqlar prosesinə xələl gətirilir.

İşğal və təcavüzə əsaslanan, qəbuledilməz mövcud status-kvonun dəyişdirilməsi, münaqişənin həlli və nəticə etibarilə regionda sülh və sabitliyin bərqərar olması üçün ilk növbədə Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş Azərbaycan ərazilərindən çıxarılmalıdır.

*Qələbə - 70*

# Belarus torpağının fəxri vətəndaşı

***70 il öncə dünya ağalığı niyyətinə düşən Adolf Hitler özünün işğalçılıq planları ilə məhv edildi. Tanınmış hərbi diktor Levitan müharibənin sona çatdığı və faşistlərin təslim olması barədə məlumatı radio ilə dünyaya yaydı. Bəşəriyyətin faşizm taunundan xilas olduğu 9 may Qələbə gününü azadlıqsevər, sülhsevər ölkələr bayram etdi. İnsanlığın məhvinə yönələn faşizm siyasətinin aparıcı qüvvələrinin cəmləşdiyi Reyxstaqa Qələbə bayrağı sancıldı.***



Böyük Qələbənin qazanılmasında xalqımızın igid oğul və qızlarının xidmətləri az olmadı, onların göstərdikləri qəhrəmanlıqlar tarixə yazıldı.

Böyük Vətən müharibəsi illərində Azərbaycan zəhmətkeşləri "Hər şey cəbhə üçün, hər şey Qələbə üçün!" şüarı altında gecə-gündüz çalışdılar.

Faşizm üzərində qazanılan qələbədə Masallı rayon zəhmətkeşləri də səfərbər olunaraq öz töhfələrini veriblər. Belə ki, 1941-1945-ci illərdə orduya tanklar alınmasından ötrü 447 min manat pul və 276 min manatdan çox istiqraz vərəqəsi toplayan masallılara Ali Baş Komandan İ.V.Stalin xüsusi təşəkkür məktubu göndərmişdi.

Masallının 10914 vətənpərvər oğlu müharibə başlandığı gündən döyüşlərə atılıb. Onlardan - 4248 nəfəri Vətənə dönərək əmək meydanlarında çalışıb. 5 mindən çoxu faşistlərə qarşı mərdliklə döyüşərək cəbhələrdə həlak olub. Hazırda rayonda sağ qalan 15 Böyük Vətən müharibəsi veteranı var ki, onlar da dövlətimizin yüksək diqqət və qayğısı ilə əhatə olunublar.

Masallı rayonunun Binə Xocavar kəndi əməksevər insanları, xeyirxah camaatı ilə tanınır. Bir də zamanında qəhrəmanlığı ilə ad-san qazanan, şöhrəti uzaq Belarus torpaqlarında yayılan, xoş sorağı ölkəmizi dolaşan el ağsaqqalı Atabala müəllimlə tanınır bu kənd.

Atabala Həzi oğlu Hacıyev 1924-cü ildə bu kənddə doğulub boya-başa çatıb. 1942-ci ildə ordu sıralarına xidmətə çağırılan Atabala Taqanroqdan Berlinədək döyüş yolu keçir və "əlaçı rabitəçi" adını qazanır. Döyüşlərdə göstərdiyi qəhrəmanlığına görə ona yüksək mükafat - Lenin ordeni təqdim edilir, "İgidliyə görə" və çoxsaylı döyüş medallarına layiq görülür. Müharibəni rabitəsiz təsəvvür etməyən çevik, cəsarətli gənc Atabala Polşa, Moldova, Almaniya torpaqlarında gedən döyüşlərdə fəal iştirak edir.

Müharibə və əmək veteranı Atabala Hacıyev cəbhə xatirələrini danışmaqdan yorulmur. Hər bir hadisəni tarixinə, gününə, saatına qədər dəqiqliklə çatdırmağa çaışır. O, peşəkar rabitəçi kimi 38 döyüşün qələbə ilə başa çatmasında iştirak edib. Danışdıqca xatirələr onu Vətəndən uzaqlara, Belarus torpağına aparıb çıxarır...

"Axşamçağı tapşırıq gəldi ki, faşistlərin yerləşdiyi bina dağıdılmalıdır. Əməliyyatı gecəyarısı keçirməli idik. 9 nəfər kəşfiyyatçı ilə birlikdə komandanlığın verdiyi tapşırığı layiqincə yerinə yetirdik. Nə qədər faşist məhv edildi, bina yerlə-yeksan oldu".




Atabala müəllim ona Lenin ordeninin verilməsi xəbərini də yaxşı xatırlayır. "1946-cı ilin aprelində hələ orduda xidmətimə davam edirdim. Bir gün milliyyətcə rus olan əsgər qaça-qaça gəlib mənə sevincək dedi ki, muştuluq ver, sənə xəbərim var. Axşam sənə Lenin ordeni verilməsi ilə əlaqədar fərman oxunub... O hadisədən sonra serjant rütbəsində ikən mənə 45 gün zabit məzuniyyəti verdilər..."

Atabala müəllim danışdıqca sanki o illərə dönür, ömrünün acılı-şirinli anlarını təkrar yaşayır.

Ağır müharibə illərini geridə qoyan Atabala müəllim gərgin əmək fəaliyyətinə başlayır. 1954-cü ildə Gəncədə Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsinə qəbul olunur. Ailədə dolanışıq çətin olduğundan təhsilini qiyabi davam etdirməli olur. Əvvəlcə təsərrüfatda baş aqronom işləyir, sonra isə kolxoz sədri seçilir. Rayonun ictimai həyatının fəallarından olan Atabala müəllim 40 ildir ki, rayon Veteranlar Təşkilatına rəhbərlik edir. Gənclərimizin orduya hazırlanmasında, vətənpərvərlik tərbiyəsində apardığı təbliğat işləri bu gün Atabala müəllimin fəaliyyətinin əsas hissəsidir. Ağsaqqal veteranımız xeyirxah əməllərin sahibi kimi də tanınır. Topladığı təqaüdlə öz kəndlərində dağılmış yolu yenidən çəkdirib.

92 yaşlı Atabala müəllim 9 övlad, 36 nəvə, 14 nəticə, 2 kötücə sahibidir. "Halal zəhmət və xeyirxah əməllər insan ömrünə yaraşıqdır", - deyir həmsöhbətim.

Keçən il Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Masallı rayonunun Binə Xocavar kəndinə - Atabala Hacıyevə ünvanladığı təbrik məktubu rayonda hadisəyə çevrildi. Bu xəbər ölkənin kütləvi informasiya vasitələrində geniş yayıldı.

Səmimi hiss və duyğularla diqqət çəkən, dostluq və qardaşlıq ənənələrini əks etdirən sətirlərdə oxuyuruq:

*"Hörmətli Atabala Həzi oğlu Hacıyev! Belarus Respublikasının faşist işğalından azad olunmasının 70 illiyi və Belarus Respublikasının Müstəqillik Günü (Respublika günü) münasibətilə səmimi təbrikimi qəbul edin.*

*Böyük Vətən müharibəsi belarus xalqının tarixi yaddaşına qəhrəmanlıq səhifəsi kimi əbədi həkk olunub, hansı ki, zəfər və facıə, günahsız qurbanlara görə kədər, qələbə sevinci, düşmənlə müqəddəs mübarizədə qalib gələn xalq iradəsi qarşısında səcdə - qırılmaz tellərlə bir-birinə bağlıdır...*

*Ötən illərdə belarusların neçə nəsli müharibə dəhşətlərini bilmədən doğulub və böyüyüb. Bu böyük xoşbəxtlik üçün biz sizə, o vaxt Vətənimizin müstəqilliyini qoruyan hər kəsə borcluyuq. Təsadüfi deyil ki, faşist işğalından azad olunduğumuz böyük gün suveren Belarusda əsas milli bayrama - Müstəqillik gününə çevrilib.*

*Qələbədə və ölkənin müharibədən sonrakı dirçəlişində göstərdiyiniz şücaətə görə sizin qarşınızda baş əyirik və səmimi təşəkkürümüzü bildiririk".*

Vətəninə, xalqına şöhrət qazandıran Atabala Hacıyev kimi döyüşçü veteranlarımızın qəhrəmanlıq dolu ömür yolu müasir Azərbaycan gəncliyi üçün əsl örnəkdir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə "Akkuyu" AES-in təməli qoyulub




Türkiyənin Mersin vilayətində "Akkuyu" Atom Elektrik Stansiyasının (AES) təməli qoyulub. Bu münasibətlə keçirilən mərasimdə Türkiyənin enerji və təbii sərvətlər naziri Tuner Yıldız, "Rosatom" şirkətinin baş direktoru Sergey Kiriyenko, "Akkuyu-atom" Anonim Şirkətinin baş direktoru Fuad Axundov, Mersin vilayətinin valisi Özdemir Çakacaq və digər rəsmi şəxslər iştirak ediblər.

Mərasimdəki çıxışlarda qeyd olunub ki, Türkiyənin sürətli inkişafı ölkədə enerjiyə olan tələbatın həcmini də durmadan artırır.

Məlumat verilib ki, yeni AES-in tikintisində 10 mindən çox insan çalışacaq. Türkiyə atom enerjisindən istifadə etməklə təbii qaz sərfini dəfələrlə azaldacaq.

## Kibermüharibələr Avropanı narahat edir



Ekspertlər Fransanın "TV5 Monde" teleşirkətinə haker hücumunu terror aktı kimi dəyərləndirirlər. Ölkənin müdafiə naziri isə bunu "başlanmış kibermüharibə" hesab edir.

Özlərini "kiberxəlifət" adlandıran hakerlər "TV5 Monde" televiziyasının bütün kanallarda yayımını bir neçə saat pozublar. Bu hadisədən əvvəl isə hakerlər internet şəbəkəsində Amerika ordusunun məxfi sənədlərini yerləşdiriblər.

Avropa İttifaqının terrorizmə qarşı mübarizə üzrə koordinatoru Jil de Kerşov "Die Welt" qəzetinə müsahibəsində deyib: "İstisna etmək olmaz ki, "Əl-Qaidə" qruplaşmasından və ya İŞİD-dən olan terrorçu hakerlər iri miqyaslı terror aktı törətmək məqsədilə elektrik, yaxud qaz təchizatı şəbəkələrinə, uçuşların təhlükəsizliyi xidmətlərinə hücum edə bilərlər".

## Rumıniya terrorizmlə mübarizəyə qarşı beynəlxalq məhkəmə yaradılmasını təklif edir



Rumıniyanın xarici işlər naziri Boqdan Auresku Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirlərinin Barselonada keçirilən görüşündə terrorizmlə mübarizəyə qarşı yeni qurum - beynəlxalq məhkəmə yaradılması təklifi ilə çıxış edib. Təklif tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb. Təşəbbüslə bağlı bu həftə hüquq sahəsində ekspertlərin Buxarestdə görüşü planlaşdırılır.

Terrorizmlə mübarizə ilə yanaşı, Barselona görüşündə təhlükəsizlik, miqrasiya, energetika və ticarət məsələləri üzrə müzakirələr aparılıb.

## San-Fransiskoda ilk üzən şəhərin tikintisinə hazırlıq görülür



ABŞ-ın San-Fransisko şəhərində yerləşən Dənizdə Yaşayış Məskənləri İnstitutu ilk üzən şəhərin tikintisinə və hüquqi sənədləşməsinə hazırlıq işləri görür.

İTAR-TASS xəbər verir ki, dəniz sularında yeni növ yaşayış məntəqəsi artıq 2020-ci ildə yarana bilər.

Layihə müəllifləri üzən şəhərin muxtar siyasi və sosial təhsil, iqtisadiyyat və vergi sisteminin olacağını bildirirlər. İndi onlar bu cür yaşayış məntəqələrinin hüquqi statusunu müəyyən edən müvafiq beynəlxalq razılaşmanın hazırlanması ilə məşğuldurlar. İlk üzən şəhərin həmin razılaşmanı imzalayan dövlətin yaxınlığında yerləşəcəyi istisna edilmir.

## Türkiyə Böyük Millət Məclisi sədrinin Rusiyaya səfəri



Türkiyə Böyük Millət Məclisinin sədri Cəmil Çiçək Rusiyaya üçgünlük səfərdə olub. Səfər çərçivəsində Cəmil Çiçək Dövlət Dumasının sədri Sergey Narışkin, Rusiya Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb.

TBMM sədrinin Tatarıstan Respublikasında Prezident Rüstəm Minnixanov ilə görüşüb, parlamentlər arasında qarşılıqlı anlaşma və münasibətlərin inkişafına dair memorandum imzalanıb. Həmçinin C.Çiçək Kazan Dövlət Universitetində tələbələr qarşısında çıxış edib.

## Fransada Napoleonun məhkəməsi olacaq



İllər keçsə də, Fransada Napoleon dövrünə maraq azalmır. Fransa Debatları Federasiyası mayın 21-də Napoleonla bağlı məhkəmə keçirmək niyyətindədir.

İTAR-TASS xəbər verir ki, Vaterlooda "Böyük Ordunun" darmadağın edilməsindən 200 il sonra qurulacaq prosesin mərkəzində Napoleon Bonapart olacaq. Onlar bu hadisədən sonra hakimiyyətdən getməyə məcbur olan imperatorun açıq məhkəmədə öz maraqlarını qorumaq haqqını tanımadan Müqəddəs Yelena adasına sürgün edildiyi üçün məhkəmə keçirirlər.

Məhkəmənin həm ittiham, həm də müdafiə tərəfi Sorbonna Siyasi Elmlər İnstitutu və Ali Ticarət Məktəbinin təşkil etdiyi müsabiqə yolu ilə seçiləcək.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

*Çanaqqala zəfəri - 100*

# Vətənpərvər millətin əzmini qırmaq olmaz



Çanaqqala savaşı bəşəriyyətin hərb tarixinə ən qanlı dəniz və quru müharibəsi kimi yazılıb. Birinci Dünya müharibəsini qalib olaraq bitirmək istəyən imperialist qüvvələrin 100 il öncə məqsədləri Çanaqqala boğazından keçərək İstanbulu işğal edib Türkiyəyə sahiblənmək, çoxəsrlik imperiyanı yer üzündən silmək idi. Rusiya boğazları ələ keçirib dənizlərə çıxmağı hədəfləyərkən İngiltərə Süveyş kanalı və Hind yolunun təhlükəsizliyi üçün Fələstini işğal etmək planını hazırlayır, italyanların niyyəti isə Antalyaya sahib olmaq idi. Bu döyüş Türkiyəyə ağlagəlməz müsibətlər gətirsə də, qəhrəman türk xalqının əzmi dünyanı sarsıtdı. Çanaqqala döyüşü dastanlara, nağıllara çevrildi, qərb generalları heyrətlərini gizlədə bilmədilər.

Çanaqqala boğazının coğrafi mövqeyi Egey dənizindən Mərmərə dənizinə uzanan, Avropa və Asiyanı birləşdirən, dünyanı qovuşduran ensiz su keçididir. Tarixin ən qədim dövrlərindən strateji əhəmiyyətə malik olan İstanbul boğazı Qara dənizin qapısı, Çanaqqala isə Egey dənizinin qapısı hesab olunurdu. Bu boğazlar təkcə Aralıq dənizini Qara dənizə, Avropanı Asiyaya bağlayan su yolu deyil, həmçinin Aralıq dənizinin Cəbəllütariq və Süveyş kanalı ilə inteqrasiya olunaraq dünyanın böyük dənizlərini, materikləri bir-birinə bağlayan, eyni zamanda geosiyasi mövqeyi ilə dünya siyasətinə və iqtisadiyyatına çox böyük təsir edən strateji mövqe idi. Yalnız bu boğazlardan keçməklə Türkiyəyə sahib olmaq mümkün idi.

1914-cü il noyabrın 3-də səhər tezdən İngiltərə və Fransaya aid olan hərbi dəniz gəmiləri Bozca adasından Çanaqqala boğazının sahil sularına daxil olaraq Osmanlı ordusunun sahildə yerləşən müdafiə istehkamlarına atəş açmağa başlayır. Lakin düşmən burada güclü müqavimətlə rastlaşır. Türk topçularının atdıqları hər mərmi hədəfə dəyir. Müttəfiq imperialist dövlətlərin hərbi dəniz qüvvələri müharibənin taleyini həll etmək üçün boğaz sahillərinə əlavə qüvvə göndərir. Şanlı türk ordusu bu dəfə də əzmini göstərir və müttəfiq qüvvələr döyüşdə tab gətirməyir.

Çanaqqala döyüşü türk tarixinin ən əhəmiyyətli döyüşüdür. Çünki bu boğazla İstanbula yetişmək Avropa ölkələrinin bütün zamanlarda arzusu olub.

Noyabrda düşmənin donanması boğaza daxil olmaq üçün yenidən bütün gücünü səfərbər edir. Lakin onların




bu cəhdi də boşa çıxır. Canlı itkinin çoxalması və döyüş gəmilərinin sıradan çıxması admiral Kardenin karyerasına son verir, rəhbərlik admiral de-Robekə tapşırılır. 1915-ci il martın 17-də vəzifəsinin icrasına başlayan admiral gecikmədən adanın ələ keçirilməsini nəzərdə tutan son hücum əməliyyatına başlamaq əmri verir.

Martın 17-dən 18-nə keçən gecə son əməliyyat hazırlanır. Düşmən gəmilərində 250-dən artıq müasir top yerləşdirilərək sahilboyu 10 müdafiə istehkamı qurulur. Türk ordusu 170 ədəd köhnə topu olmasına baxmayaraq həlledici döyüşə hazırlaşır. Martın 17-si axşamdan minbaşı Nəzmi bəy "Nüsrət" mina döyüşçü gəmisi ilə boğaz sularına 11 xətdən ibarət 26 mina düzür, hava işıqlanana qədər düzülən minaların sayı 400-ə çatdırılır.

O zaman heç kim inanmazdı ki, "Nüsrət" gəmisinin minaları qanlı dəniz döyüşünün sonunu gətirəcək. Martın 18-i səhər tezdən düşmən qüvvələri 18 döyüş gəmisi ilə hücuma keçir. Bununla da dünyanın ən böyük dəniz savaşı başlayır. İmperialist dövlətlərin ordu qüvvələri əvvəlcə Rumelidə Məcidiyyəni, sonra da Həmdiyyə istehkamlarını vurur. Günboyu qeyri-bərabər qüvvələrlə tarixdə görünməmiş qanlı döyüş başlanır. Gəmilərinin dənizdə qərq olduğunu görən ingilis generalları İstanbulu işğal etməyin Çanaqqala variantının mənasızlığını dərk edib, qüvvələrini dərhal geri çəkməyə başlayırlar. Bu vaxt A xəttini keçməyə ciddi cəhd göstərən fransız gəmisi "Bouvet" Həmdiyyə istehkamına atəş açmaq istəyərkən minaya düşüb 639 hərbçi ilə birlikdə suya qərq olur. Beləliklə, 6 saat ərzində bir neçə zirehli gəmi itirən admiral de-Robek geri çəkilmə əmrini verir.

Martın 18-i axşama doğru Türkiyə ordusunun cəbhəsində də durum gərgin, şəhidlərin sayı minlərlə idi. Bütün topçular şəhid olmuş, meydanda tək çavuş Seyid qalmışdı, bu zaman düşmən gəmisi boğaza yaxınlaşırdı. Tək bircə ədəd 276 kiloluq ağır mərmi var idi ki, bununla da çavuş Seyid boğaza yaxınlaşan düşmən gəmisini hədəf alır. Bir göz qırpımında gəminin gövdəsi dağılaraq suya sovrulur. Çanaqqala uğrunda gedən sonuncu dəniz döyüşündə atılan bu mərmi qanlı müharibənin taleyini həll edir.

Qədim Osmanlı dövləti tarixi Çanaqqala zəfərini sevinclə qarşılayır. Türk xalqı bu döyüşdə 250 min şəhid verir.

Məğlubiyyətlə barışmayan ingilis generalları qısa zamanda qurudan hərbi əməliyyatlara başlamaq tapşırığı verirlər. Boğazdakı topçu batareyasını ələ keçirmək məqsədilə ingilis və fransız qüvvələri aylarla mücadilə edir, lakin Osmanlı qüvvələrinin əzmini qıra bilmir.

Düşmənin qüvvələri son gücünü toplayaraq martın 25-də Seddülbahirdən quruya qoşun çıxarır və bu istiqamətdə daha bir qanlı döyüş baş verir. Aprelin 25-də gedən qanlı döyüşlərdə hər iki tərəf çoxlu sayda itki verir. Türkiyəni məhv etmək məqsədilə ordularını Çanaqqalaya çəkən dövlətlər 1915-ci ilin dekabrında Gelibolu bölgəsini və Çanaqqalanı tamamilə tərk edirlər. Türkiyə ordusu qazandığı Çanaqqala zəfərilə sübut edir ki, dünya bir yerə yığışsa da, onun boğazından keçilməz.

Tarixi qaynaqlardan məlum olur ki, Çanaqqala döyüşündə azərbaycanlı oğullar da iştirak edib. 1915-ci ildə soydaşlarımız Osmanlı imperiyası tərəfində vuruşmaq üçün Tiflisə toplaşıb, oradan da Çanaqqala cəbhəsinə yola düşüblər. Dünya hərb tarixinə ən qanlı və şərəfli döyüş kimi yazılan Çanaqqala döyüşü hər zaman hərbçilərin, tarixçilərin, tədqiqatçıların diqqətini çəkib, onları heyrətləndirib. Məşhur bəstəkarımız Vasif Adgözəlovun "Çanaqqala" oratoriyasını hər dəfə dinlədikdə sanki o döyüş nəzərimizdə təkrarən canlanır, türk xalqının əzəmətinə heyran qalırsan.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# Hərb tariximizi yaşadan müdafiə qalaları



***Bu günlərdə Azərbaycan Hərb Tarixi Muzeyində 18 aprel - Tarixi Abidələrin Mühafizəsi Gününə həsr olunmuş tədbir keçirilib.***

Hərb Tarixi Muzeyi və Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsinin "İçərişəhər" tarixi muzeyinin birgə təşkilatçılığı ilə keçirilən tədbir "Azərbaycan hərb tarixində müdafiə istehkamlarının rolu" mövzusunu geniş əhatə edib. Əvvəlcə Dövlət himni səsləndirilib və sonra muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri açıq elan edib. O, çıxışına YUNESKO-nun abidələrin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü il aprelin 18-də qəbul etdiyi qərarın əhəmiyyəti barədə məlumatla başlayıb. Muzeyin rəisi qeyd edib ki, qərarın verilməsində əsas məqsəd dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına, mühafizə edilməsinə yönəltməkdir.

Qədim dövrdən Azərbaycan hərb işinin tərkib hissəsini istehkam qurğularının inşası təşkil edirdi. İnsan cəmiyyəti yarandığı dövrdən yaşadığı ərazini müxtəlif vasitələrlə qorumağa çalışıb. Qobustan, Gəmiqaya, Çıraqqala, Oğlanqala, Cavanşir, Gülüstan, Əlincə, Gələrsən-Görərsən kimi qalalarımız tarixi keçmişimizin maddi yadigarlarıdır.

"İçərişəhər" tarixi muzeyinin direktor müavini Musa Musayev müstəqillik dövründə Azərbaycan dövləti tərəfindən ölkəmizdə mədəni irsin qorunması, öyrənilməsi və təbliğinə qayğının və dəstəyin durmadan artdığını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Heydər Əliyev Fondunun prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanın bir çox mədəni irs lahiyələrinin təşəbbüsçüsü və himayəçisi olduğunu qeyd edib.

Azərbaycan Hərb Tarixi və "İçərişəhər" tarixi muzeylərinin əməkdaşları Həcər Alxasova və Nuranə Nəcəfova ölkəmizdəki müdafiə istehkamları haqqında məruzələrlə çıxış ediblər.

"İçərişəhər" tarixi muzeyinin təqdim etdiyi "Qədim Bakıya səyahət" adlı qısametrajlı sənədli film də tədbir iştirakçılarında maraq doğurub.

Baner üzərində şəhər muzeylərində saxlanılan eksponatların fotosundan ibarət geniş sərgini tədbir iştirakçıları maraqla qarşılayıblar. Müdafiə istehkamları" adlı sərgidə Şirvanşahlar dövlətinin Hərbi




Dəniz Donanması, hərbi qurğuları, silahları, döyüş səhnələri miniatürlərdə, zirehli geyimlər, Azərbaycanın müdafiə qalaları, Abşeronun müdafiə qalaları, İçərişəhər müdafiə qalası və dövlət rəmzlərinin fotoları nümayiş olunurdu. Tədbir iştirakçıları "İçərişəhər" tarixi muzeyinin fonduna aid 15 ədəd qədim silahla da yaxından tanış olublar.

Tədbir Azərbaycan Hərb Tarixi Muzeyi və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Tarixi muzeyi arasında əməkdaşlıq haqqında memorandumun imzalanması mərasimi ilə başa çatıb.

Qısa statistik məlumat: Qarabağ müharibəsinin birinci mərhələsində Ermənistanın 20 faiz torpaqlarımızı işğalı nəticəsində 500-dək tarixi memarlıq, 100-dən çox arxeoloji abidələr, on minlərlə eksponatı olan 22 muzey, 4 rəsm qalereyası, 46 milyon kitab və əlyazmalar saxlanılan 927 kitabxana, 808 klub və digər tarixi mədəniyyət abidələri dağıdılıb. İşğal altında olan ərazilərimizdə xalqımızın keçmişi və bu gününü əks etdirən 1852 mədəniyyət və incəsənət abidəsi erməni vandalizminin təcavüzünə məruz qalıb. Nəticədə tariximiz üçün mühüm əhəmiyyət kəsb edən, milli özünəməxsusluğu özündə yaşadan minlərlə tarixi və arxeoloji abidələrimiz məhv edilib.

**"Azərbaycan Ordusu"**

## İdman

### "Bakı-2015" Avropa Oyunlarına medianın akkreditasiyası müsbət qiymətləndirilib




"Bakı-2015" Avropa Oyunlarına cari ayın əvvəlində akkreditasiya prosesi başa çatıb və 1300-dən çox mətbuat nümayəndəsi tədbiri işıqlandırmaq üçün müraciət edib. "Bakı-2015"-dən AzərTAc-a bildiriblər ki, Azərbaycanda ilk dəfə olaraq bir tədbir üçün bu qədər çox sayda müraciət daxil olub. "Bakı-2015"-in əməliyyatlar üzrə baş direktoru Saymon Kleq bildirib: "Rəylər olduqca sevindiricidir. Bütün akkreditasiyaların Azərbaycana viza rolunu oynayacağını və açılış mərasimindən 30 gün əvvəldən başlayaraq bağlanış mərasimindən 60 gün sonrayadək qüvvədə olacağını təsdiq edirəm. Bu gənc və dinamik ölkəni nümayiş etdirəcək möhtəşəm tədbirə qatılmaq üçün akkreditasiyadan keçmiş media üzvləri, Avropa Oyunları ailəsi və oyunlara gələn hər bir kəs Azərbaycanda ən dəyərli qonaq hesab olunacaq".

### Atletimiz Əfqan Bayramov təkanla ağırlıqqaldırmada Avropa çempionu olub




Azərbaycanın ağır atleti, "Təhsil" idman mərkəzinin yetirməsi Əfqan Bayramov təkanla ağırlıqqaldırma üzrə Avropa çempionu olub. AzərTAc xəbər verir ki, Tbilisidə keçirilən ağırlıqqaldırma üzrə Avropa çempionatında 77 kiloqram çəki dərəcəsində mübarizə aparan atletimiz təkanla qaldırmada birinci cəhddə 180, ikinci cəhddə isə 192 kiloqramın öhdəsindən bacarıqla gəlib. Bununla da o, təkanla ağırlıqqaldırmada Avropa çempionu olub.

Qeyd edək ki, Əfqan Bayramov birdən qaldırma üzrə yarışda 141 kiloqram nəticə göstərib. Ümumilikdə isə 333 kiloqram nəticə ilə 5-ci və 6-cı yerləri bölüşüb.

### Azərbaycan taekvondoçuları Ukraynadakı turnirdə 7 medal qazanıblar



Ukraynanın Xarkov şəhərində keçirilən "G-1" kateqoriyalı "Ukraine Open" beynəlxalq turnirində Azərbaycanın taekvondo üzrə yığması uğura imza atıb. Azərbaycan Taekvondo Federasiyasından bildiriblər ki, kişilər arasında taekvondoçumuz M.Harçeqani (80 kq), Ayxan Tağızadə (68 kq) yalnız finalda məğlub olaraq turnirin gümüş medalını qazanıblar. Qadın taekvondoçulardan 67 kiloqram çəki dərəcəsində mübarizəyə qatılan Fəridə Əzizova da turnirin gümüş medalına layiq görülüb. Günay Ağakişiyeva (57 kq) isə turniri bürünc medalla başa vurub.

Patimat Abakarova (49 kq), Darya Şkurko (62 kq) və Marina Tedeeva (73 kq) isə turniri bürünc medalla başa vurublar.

### Azərbaycan şahmatçısı Dubayda beynəlxalq turnirdə ikinci yeri tutub



Dubayda keçirilən şahmat üzrə beynəlxalq turnirə yekun vurulub. Apasport.az saytının məlumatına görə, yarışda iştirak edən Azərbaycan millisinin üzvlərindən ən yaxşı nəticəni Eltac Səfərli göstərib.

9 turdan 7 xal toplayan həmyerlimiz əlavə göstəricilərə görə 2-ci yeri tutub. Onunla eyni xal toplayan türkiyəli Solak Draqan çempion adına layiq görülüb.

Yarışın ardınca blits turnir də təşkil olunub. Burada 11 turun yekununa əsasən, Q.Hüseynov 8,5 xal toplayaraq ikinci yerdə qərarlaşıb. O, çempion Vladimir Fedoseyevdən (Rusiya) 1,5 xal geri qalıb.

### Cüdo üzrə Avropa kuboku yarışlarında Azərbaycan millisi 4 medal qazanıb




AzərTAc xəbər verir ki, cüdoçularımızdan İbrahim Bayramlı (50 kq), Tofiq Məmmədov, Kəramət Hüseynov (hər ikisi 55 kq) və İsmayıl İbrahimov (60 kq) bürünc medallara sahib olublar. Paşa Əliyev (60 kq) və Nahid Amanov (73 kq) bürünc medal uğrunda görüşlərdə məğlub olaraq turniri beşinci pillədə başa vurublar.

Avropa kuboku yarışlarında 33 ölkədən 687 cüdoçu birincilik uğrunda mübarizə aparıb.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

*Hərbi vətənpərvərlik*

# "Şahin"lərin birinciliyi



Bu günlərdə "N" hərbi hissəsində Qaradağ rayon məktəbliləri arasında "Şahin" hərbi idman oyunları keçirildi. Yarışların təşkili barədə əməkdaşımıza qısa məlumat verən polkovnik-leytenant Elsevər Orucov bildirib ki, birincilikdə 23 komanda iştirak edir. Yarışların yüksək səviyyədə keçirilməsi üçün hərbi hissədə hərtərəfli şərait yaradılmışdı. Məktəblilər birincilikdə qalib gəlmək üçün sıra və tibbi hazırlıqdan, silahların sökülüb-yığılması, atıcılıq və maneələr zolağını adlamaqla bağlı məharətlərini göstərməli idilər.

- Yarışlara start verilən kimi məktəblilər komandalarını birinci yerə çıxarmaq üçün öz qüvvələrini əsirgəməyiblər, - deyə zabit qeyd edib. - Şagirdlər tapşırıqları yerinə yetirərkən çalışıblar ki, səhvə yol verməsinlər. Onların hərəkətlərini izlədikcə hiss olunurdu ki, sabahımızın əsgərlərinin hazırlığı yüksəkdir.

Nəhayət, yarışlar başa çatdı, nəticələr elan olundu. Məlum oldu ki, hazırlığı yüksək olan 184 nömrəli orta məktəbin şagirdləri daha yaxşı nəticə göstərərək birinci yerə yüksəliblər. 2-ci yerə 195 nömrəli orta məktəbin şagirdləri çıxıblar. 222 nömrəli orta məktəbin şagirdləri 3-cü yerlə kifayətlənməli olublar. Qalib gəlmiş komandanın üzvləri, həmçinin çağırışaqədərki hazırlıq müəllimi Əkrəm Mikayılov, məktəb direktoru Mehriban Ələkbərova sevinc içindəydilər.

Qaliblərə kuboku və diplomları Qaradağ rayon Gənclər və İdman İdarəsinin rəisi Elçin Abbasov və başqa nümayəndələr təqdim etdilər.

**V.MƏMMƏDQULUOĞLU,**
**"Azərbaycan Ordusu"**

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# "Ən yaxşı planşetçi"



- Hərbi hissədə şəxsi heyətin döyüş hazırlığının artırılması məqsədi ilə müntəzəm olaraq "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında müxtəlif yarışlar keçirilir, - deyə polkovnik-leytenant Eldəniz Daşdəmirov bizimlə söhbətə başladı. - Bu yaxınlarda isə bölmələr arasında "Ən yaxşı planşetçi" yarısı keçirildi. Yarış şəxsi heyətin böyük marağına səbəb oldu. Planşetçilər yarış boyu öz peşəkarlıqlarını ortalığa qoyaraq birinci pilləyə çıxmağa çalışırdılar. Birincilik, gözlənildiyi kimi, gərgin və maraqlı keçdi. Yarışlar başa çatandan sonra nəticələr elan olundu. Daha hazırlıqlı olan, vəzifə borcunu düzgün yerinə yetirən, hədəfləri vaxtında və dəqiq aşkar edən planşetçilər - döyüşü idarəetmə manqasının əsgəriləri Sübhan Ələkbərov və Kənan İbrahimzadə daha yaxşı nəticə göstərərək yarışın qalibi oldular. Qaliblər hərbi hissə komandiri tərəfindən fəxri fərmanlarla mükafatlandırıldılar.

Qeyd etmək lazımdır ki, hərbi hissə və birləşmələrdə "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında yarışların keçirilməsi əsgərlərin bilik və bacarığını, döyüş ruhunu daha da artırır.

**"Azərbaycan Ordusu"**

Kapitan-leytenant Həşimov Ruslan İslam oğluna 2005-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi və şəxsiyyət vəsiqəsi (AZE №13993076) itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 418
Nüsxə 4600